LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİ



# ELMİ XƏBƏRLƏR

## Humanitar elmlər seriyası

2017

AZƏRBAYCAN RESPUBLIKASI TƏHSIL NAZIRLIYI

LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİ

# ELMİ XƏBƏRLƏR

## Humanitar elmləri seriyasi

Lənkəran – 2017

трудолюбии, о чистых чувствах, об их диалектах, о традициях и обычаях, о гостеприимстве, о легендах и сказках стариков.

Тем самым Жорж Санд посредством этих романов смогла завоевать любовь огромной массы читателей к их богатому внутреннему миру и к житейской мудрости.

**Aygun Aliyeva**
**Ganja State University**

**Human rights problem and peasant image in the works of George Sand**

**Summary**

This article says about novels written on the theme of village and peasant's life in Nohant by George Sand, French writer of XIX century. Writer included 3 novels into this section named as "Les romans chmapetres"; "François le Champi", "La petite Fadette" and "The Devil's pool".

In each of three novels George Sand narrates with great enthusiasm about Berry, her hometown, life of peasonts whom she sympathised and had good relationship, their hard work, transcendental love feelings, customs and traditions, dialects, meals, hospitality, legends and fair tales of old people.

In this way George Sand, through these novels, managed to cause great number of readers to love them for their pure morality, inner world wealth and wisdom of peasant.

**Mələk Kərimova,**
**Doktorant**
**Xəzər universiteti**
**mkerimova@khazar.org**

**İncəsənət psixoloji təsir vasitəsi kimi**

**Annotasiya:**Bu məqalədə incəsənətə nə üçün ehtiyac duyulduğu, insanın hansı tələbatlarını ödədiyi, incəsənətin bir növü olan musiqinin insana olan psixoloji təsirinin nələr olduğu ilə əlaqədar suallara cavab axtarılmış və bu sahədə aparılan tədqiqatlardan bəhs edilmiş və bu mövzu ilə bağlı müəllif tərəfindən təkliflər verilmişdir.

**Açar sözlər:** incəsənət, musiqi psixologiyası, musiqi,katarsis
**Ключевые слова:** исскуство, музыкальная психология,музыка, катарсис
**Key words:**art, music psychology,music,catharsis

İncəsənətin nə olduğu və nə üçün ehtiyac duyulduğu hər zaman aktual suallardan biri kimi qarşımıza çıxmaqdadır. Hər dövr üçün öz aktuallığını qoruyan incəsənət mədəniyyətin bir sahəsi kimi əsrlərə, cəmiyyətlərə, millətlərə görə öz məzmununda dəyişikliklərə məruz qalmışdır. Bu dəyişikliklər onun yeni bir məzmunda davam etməsinə də təkan vermişdir. Cəmiyyətdə sosial siniflər inkişaf etdikcə və sosial quruluş dəyişdikcə incəsənət nümunələrinin də məzmununda dəyişikliklər və dövrün ştrixləri öz əksini tapmışdır.

Incəsənət içtimai şüurun bir məhsulu olmaqla yanaşı, bütün formaları ilə insan şüurun məhsuludur. İnsan şüuru, şüuraltı proseslər, dövrün tələbləri, içtimai şüurun ehtiyacları incəsənətdə öz əksini tapır.

İncəsənət əsərləri yalnızca estetik həzz yaşatmır, o eyni zamanda yaradıcılığa, gözəlliyə, ülviliyə, estetik tərbiyəyə müsbət münasibətin formalaşmasına xidmət edir.

İncəsənət əsərindən alınan zövq güclü duyğular oyandırmaqla birlikdə hər bir insana görə fərdi təcrübə kimi qiymətləndirilə bilər. Daxili təcrübənin yaşanması təkcə insanın incəsənət əsərindən aldığı zövqlə əlaqəli olmamaqdadır. İncəsənət əsərindən alınan təcrübələrin, daxili və mənəvi duyğuların insanın həyatına təsiri yüksək olmaqdadır. İncəsənət əsərləri insan ehtiyaclarından müstəqil şəkildə mövcud ola bilməz. İncəsənətin məqsədi vardır və o insan ehtiyaclarını ödəyir. Amma incəsənətin ödədiyi bu ehtiyac maddi olmayıb, daha çox mənəvidir.

İncəsənət heç nə demir, incəsənətin deməklə bir o qədər əlaqəsi yoxdur amma o nə isə etməklə məşğuldur. Amma bizə elə gəlir ki, insan əməyinin məhsulu kimi ortaya çıxan incəsənət bizə bu və ya digər şəkildə nə isə deməyə çalışır. Hətta incəsənət heç nə deməsə belə biz onun təsiri ilə nə isə deyir və dünyagörüşümüzü zənginləşdiririk. İncəsənət əsərindən çıxarılan məna şəxsin keçmişi, fərdi təcrübəsi və daxili aləmi ilə sıx əlaqədardır və bu mənada da sənət əsərinin hər insana təsiri fərdi təcrübə kimi ələ alınmalıdır.

Sənət əsərini digər əsərlərdən fərqləndirənin nə olduğu, sənətkarı da digər insanlardan fərqli edən xüsusiyyətlərin nə olduğu hər zaman insanoğlunu düşündürmüşdü. Sənət əsərində öyrədicilik, tərbiyəedicilik kimi xüsusuyyətlərlə yanaşı, yüksək estetik həzzin yaşanması, insanın daxili aləmindəki bilinməzlə nüfuz etməsi onu özünə məxsus qılır. İncəsənət yüksək estetik həzz yaşadaraq insanın mənəvi tələbatlarını ödəyir. Estetik həzz, görüntü incəsənəti hər zaman cəzbedici və ehtiyac hiss edilən sahəyə çevirmişdir.

İnsanın şəxsiyyətə çevrilməsi üçün fəaliyyət və ünsiyyət prosesinin zəruriliyi incəsənətdə də öz əksini tapır. İnsanlara təsir edən hər bir faktorun incəsənətə və onun alt sahələrinə təsiri də qaçınılmazdır. İncəsənət əsəri onu ortaya qoyan şəxsin xarakterindən, yaradıcı potensialından asılı olmaqla bərabər, sənətkarın da yaşadığı cəmiyyətin və əsrin təzahürlərini də özündə əks etdirməsi labüddür.

Orteqa-i-Qassete görə (Q.Abbasova,2012) yeni incəsənət qocalmış dünyada insanı həyatın ciddiliyindən xilas etməyə, cavanlaşdırmağa çalışır, həmişə gənc qalmış ideyaları təbliğ edir. Sənət əsərləri insanda məmnunluq, estetik həzz və həyəcan doğurur.

***İncəsənətin sosial fəaliyyət kimi insana təsiri***

İncəsənətin insan həyatına təsirinə müxtəlif prizmalaradan baxıla bilər. İncəsənətin funksiyalarından biri fəaliyyətdir. Bu fəaliyyət onu ortaya qoyan şəxsi dəyişdiməklə yanaşı, izləyən şəxsləri də müəyyən fəaliyyətə cəlb edir və dəyişdirir. Hər hansı bir bədii əsər onu yazan şəxsin fəaliyyəti, daxili aləminin təzahürü kimi qarşımıza çıxır. Bədii əsəri oxuyan şəxsi də passiv oxuyucu kimi qiymətləndirmək düzgün olmazdı. Oxuyan şəxs də fəaliyyətdədir və qəhrəmanların dünyasını,əsərdəki hadisələri öz daxili dünyasının süzgəcindən keçirir, təxəyyülündə obrazları canlandırır, zehni proseslərini daha da aktivləşdirir və kamilləşdirir.

Beləliklə, incəsənət əsərini ortaya qoyan və bu əsərdən bəhrələnən şəxs də fəaliyyətdə və inkişafda olmaqdadır. Fəaliyyətdə olan insan həyatını daha dolğun və mənalı hiss etməkdədir.

***İncəsənətin mənəvi həzz mənbəyi kimi insana təsiri***

İncəsənət hedonistik funksiyasını yerinə yetirərkən əyləndirici olsa da, eyni zamanda insan ruhunu təmizləyici və tənzimləyici funksiyasını da özündə əks etdirir. İncəsənət insan həyatında katarsis rolunu oynayır. İnsan sənət əsərində yaşadıqları və ya yaşananları təkrar izləyir və öz daxili aləmindən hissələr taparaq mənəvi yöndən saflaşır. Mənəvi həzz alan insan müsbət emosiyalar yaşayır və bu ətrafla münasibətində də müsbət təsirlər yaradır.

***İncəsənətin öyrənmə prosesinə təsiri***

İncəsənətin şagirdlərin öyrənmə səviyyələrinə təsirini araşdıran tədqiqatlara baxıldığı zaman çox vaxt müsiqidən istifadənin onların öyrənmələrinə müsbət təsiri olduğu görülməkdədir. Öyrənmə mühiti çox zaman yeknəsəkliyi, hərəkətsizliyi ilə şagirdlər üçün sıxıcı hala gəlir. Bu mənada Kaliforniya və Wisconsin üniversitetinin əməkdaşları Shaw və

Raucher 78 şagird üzərində apardığı tədqiqat diqqət çəkməkdədir. Belə ki, 78 şagird 3 qrupa ayrılmış, bir qrupa piyanino və musiqi dərsləri, ikinci qrupa' komputer dərsləri, üçüncü qrupa isə heç bir təhsil verilməmişdir. 6 aydan sonra birinci qrupun fəza və zaman anlayışlarının digər qrupdakılara görə 34% daha yüksək olduğu müəyyən edilmişdir.

Bir başqa tədqiqatda isə, 66 uşağa Stanford-Binet Zəka testi və musiqi qabiliyyəti testi verilmişdir. 30 həftəlik bir müddət ərzində onlara həftədə 75 dəqiqə olmaq şərti ilə musiqi təhsili verilmişdir. Tədqiqat sonunda uşaqlar dəyərləndirildikləri zaman onların öyrənmə və qavrama proseslərinin sürətləndiyi müşahidə edilmişdir. (Bilhartz, Bruhn ve Olson ,1999)

Tədqiqiatlar musiqinin beynin kimyasına, zehində canlandırma, obyektlər arasındakı əlaqələri ayırtetmə gücünə təsir etdiyini ortaya qoyur. "Mozart təsiri" deyə psixologiya ədəbiyyatında istifadə edilən anlayışı da musiqinin öyrənmədə əhəmiyyətini göstərir. Bowman və digərləri (2007), Mozartın musiqilərinin qulaq asma və qavrama qabiliyyətinə təsir etdiyini qeyd ediblər.

Ümumiyyətlə klasik müsiqinin zehni funksiyalara müsbət təsiri bir çox tədqiqatlarla müəyyən edilmişdir.

***Musiqinin insana psixoloji təsiri***

İncəsənətin psixoloji təsir vasitəsi kimi istifadə edilməsinin tarixi kökləri qədimdir. Belə ki, müxtəlif xalqların mədəniyyətlərində dünyaya gələn körpələrin ana laylası ilə yatızdırılmasınının şahidi oluruq. Ana laylalarının müsiqi üzərində qurulmasının körpəyə müsbət təsiri müşahidə edilən faktlar arasındadır. Belə ki, ananın həzin musiqi oxuması, sevgi dolu səsi körpəyə rahatlatıcı təsir göstərir. Müsəlman ölkələrdə günün müxtəlif saatlarında azanın müsiqi üzərində verilməsi və Saba, Hicaz, Uşşaq, Rast, Neva məqamlarının istifadəsi də müsiqinin insanın sosial, mədəni və psixoloji sferasına təsirinin bariz nümunəsidir. Teatr və ya film nümayişi zamanı fon musiqisinin verilməsi əsərin emosional çalarını daha da artırmaqdadır.

Psixologiya elmi musiqi psixologiyası ilə əlaqədar çox məlumat versə də, incəsənətin bir növü olan musiqinin uzun müddətli təsiri barədə əsaslı tədqiqatlar azdır. Musiqi həm incəsənət növü, həm də elmdir. İbn Sina (2004) musiqini bir biri ilə ahəngli səslər və bu səslər arasındakı zamanın bir melodiyanın necə yarandığını göstərmə məqsədi ilə tədqiq edən riyazi bir elm kimi qiymətləndirməkdədir.

Karolyi (1999) müsiqiyə qulaq asmağı xoşlayan,amma müsiqinin dərinliyini bilməyən şəxsi xarici ölkəyə gedən,o ölkənin gözəlliklərindən zövq alan, danışıqlarına qulaq asan, ancaq bu danışıqlardan heç nə başa düşməyən turistə oxşatmaqdadır.

Əbəs yerə deyildir ki, musiqini insan ruhunun qidası olaraq qəbul edirlər. Musiqinin müalicə metodu kimi türk dünyasında ilk tətbiq edənlərdən biri də Hz.Lokman və onun həmkarı Hz.Davudun (M.Ö.1055-974) olduğu qeyd edilməkdədir. Hz.Loğman xəstələrini dərmanla müalicə edərkən, Hz.Davud da səsi və sazı ilə şəfa duası oxuyaraq və bu yolla "Saul" adlı hökümdarı sağaltdığı qeyd edilir (Kopar,2010). Ani və gürültulu səslər insan zehnini yorarkən, düzənli və ahəngdar musiqi sədaları insanın həyat fəaliyyətini artıraraq, ruhi gərginliyini ortadan qaldırır. Musiqi səsləri insan beyninin kortikal və supkortikal hissələrinə təsir edərək,insanın həyəcanını, duygularını və yaşam enerjisinə təsir edir.

Musiqiyə qulaq asmaqla insan vücudunun hormonları arasında əlaqə də bir çox tədqiqatlar üçün maraqlı mövzu olarak araştırılmışdır. Uçan ve Ovayolu (2016, s 17) musiqini qəlb ritmini, bədən hərarətini və tənəffüsünü tənzimlədiyini, kimyəvi terapiya alan xəstələrdə narahatlığı azaldan,xəstələrin yaşam keyfiyyətini artıran vasitə kimi qiymətləndirməkdədir.

Musiqinin müalicə üsulu olaraq ələ alınması da diqqəti çəkir.Bu sahədə fransız nevroloq Philippe Pinelin tədqiqatları ilklərdən hesab edilməkdədir. Xüsusilə şizofreniya xəstələrində, əqli məhdudiyyəti olanlar və autizmli uşaqlarda musiqinin istifadə edilməsinin müsbət mənada təsirləri olduğu ilə əlaqədar nəticələr var. (Kurt, 2006, s.20–21). Yan təsirləri az olan və maddi cəhətdən ucuz sayılan musiqi ilə müalicə metodu tədqiqatçıları bu sahəyə istiqamətləndirmişdir. Musiqi və sağlamlıq arasında yaxın əlaqə olduğu, stresli

vəziyyətlərdə sakitləşdirici musiqilərdən istifadə relaxsasiya metodunun ayrılmaz parçası halına gəlmişdir.

Adətən müalicə məqsədi ilə musiqidən istifadə edildiyi zaman iki yoldan istifadə edilməkdədir. Aktiv və passiv metod olaraq dəyərləndirilən bu yolların ilkində uşağın özünün iştirakı ilə musiqi alətinin istifadəsi ya da mahnı ifa etməsi nəzərdə tutulur.Digər yol olan passiv yolda isə daha çox musiqinin dinlənilməsinə əsaslanır.

Bu metodda ən vacib ünsür musiqi alətinin, musiqi parçasının və bu müalicə üçün seçilmiş zamanın uyğunluğudur. (Yavuzer, 1992, s.220).

Şizofreniya xəstələrində də musiqinin rolu alternativ müalicə metodu kimi istifadə edilməkdədir. Bu tip xəstələrdə xarici mühitlə əlaqə zəiflədiyi üçün çox zaman maraqsız, ürkək, donuq və motivasiyasız mənzərə ilə qarşılaşırıq. Bu mənzərənin də dəyişməsi üçün musiqidən istifadə öz müsbət təsirini göstərir. Çoban, 2005 (s.179) xarici dünyaya yadlaşan bu xəstələrin musiqi vasitəsilə real dünyanı yadasala bildiklərini qeyd edir.

Musiqi terapiyası ilə aparılan tədqiqatlarda insanlarınelektroensefaloqrafi (EEG) incələndiyi zaman müxtəlif duygular zamanı fərqli beyin dalğalarının müşahidə edildiyi, terapiya məqsədi ilə verilən musiqi zamanı da endorfin ifrazının arttığı, qorxu və narahatçılığın azaldığı müşahidə edilmişdir. Qəlb ritminin və nəfəsin tənzimlənməsində, qan təzyiqinin aşağı salınmasında da musiqinin müsbət təsiri qeyd edilməkdədir. (Gökçə,2009)

İncəsənətin müxtəlif növlərinin təsir mexanizmaları müxtəlif olsa da, insan həyatına rəng qatdığı, insanı kamilləşdirdiyi,insanı həyata bağladığı, gözəllikdən zövq alması üçün mənbə olduğu bir reallıqdır.

Son nəticə olaraq aşağıdakilər təklif edilə bilər.

1. İncəsənətin öyrənmə prosesinə müsbət təsirindən yola çıxaraq tədris olunan fənnlərdə incəsənətin müxtəlif növlərindən istifadə edərək tədris prosesini zənginləşdirmək və yadda qalıcı dərslərin kəmiyyətini və keyfiyyətini yüksəltmək vacibdir.
2. İncəsənətin hər hansı bir növü ilə məşqul olmaq insanın öz yaradıcı gücünü ortaya qoymaq üçün bir vasitədir. Bu mənada insanın yaradıcı fəaliyyət göstərməsi onun öz qabiliyyətlərini kəşf etməsinə və mənəvi cəhətdən müsbət emosiyalar yaşamasına zəmin yaradır.
3. Estetik zövqün formalaşması üçün kiçik yaşlardan etibarən ailələrin maariflən dirilməsi və incəsənətə maraq yaradılması da əhəmiyyətlidir.

Beləliklə, incəsənətin insan həyatındaki rolu, psixoloji təsir mexanizmi insanın yeknəsəq həyatdan zövq almağa sövq etməklə yanaşı, həyatdan alınan zövqü də artıracaqdır. Yaradıcı insan təkcə özünü deyil, ətrafının da müsbət mənada dəyişməsinə yol aça bilər.

## Ədəbiyyat


1. Adil Nəcəfov, İncəsənət və səhhət. Azərbaycan Dövlət Nəşriyyatı,1989 ,144
2. Bilhartz, Tery D.,Bruhn, Rick A.,Olson, Judith E. : "The Effect of Early Music Training On Child Cognitive Development", Journal of Applied Developmental Psychology, Vol: 20, Nr. 4, 1999, pp. 615–636.
3. Çoban, Adnan : Müzikoterapi, Ruh Sağlığı İçin Müzikle Tedavi,TimaşYayınları, İstanbul, 2005.
4. Ibn Sina : "Musiki", İslam Felsefesi Metinleri, Çev: Ahmet HakkıTurabi, Litera Yayıncılık, İstanbul, 2004
5. Uçan, Özlem,Ovayolu, Nimet : "Müzik ve Tıpta Kullanımı", Fırat Sağlık Hizmetleri Dergisi, Sayı: 1, Nr. 3, 2006, ss. 14–22.
6. Yavuzer, Haluk : Çocuk Psikolojisi, Remzi Kitabevi, İstanbul, 1992.

7. Kurt, Gürcan : Zihinsel Engelli Çocuklarda, Müzik Dinlemenin Öğrenme Üzerindeki Etkisi, Yüksek Lisans Tezi, Maltepe Üniversitesi S. B. E. , İstanbul, 2006.
8. Yuri Borev , "Estetika", Bakı,2010.

Мелек Керимова
Университет Хазар

**Искуство как влияния средство психологического**

**Резюме**

В этой статье говорится зачем нам нужно понятие об исскустве и о моральной подержке при помоши исскуства, о воздействие музыкального исскуства на психологию человека. Автор рассказывает о проведенных иследованиях в этой сфере и предлогает свои новшества.

Melek Kerimova
Khazar University

**Art as a psychological tools**

**Summary**

In this article discussing the nature of art and how the art influences the human being. The author tells about the conducted researches in this sphere and offers his innovations.

**Fəxrəddin Hüseyn,**
**tar.ü.f.d., dos.**
**Lənkəran Dövlət Universiteti**
**siyavar@box.az**

## İran İslam Respublikasının Dağlıq Qarabağmünaqişəsinin həllində vasitəçilik missiyası

**Annotasiya:**Cənubi Qafqaz regionunda yaranmış yeni beynəlxalq şəraitdən nüfuzunun güclənməsi və sərhədlərin təhlükəsizliyini qorumağa çalışan İran İslam Respublikası Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi üçün 1992-ci ilin əvvəllərindən aktiv vasitəçilik missiyası həyata keçirməyə başladı. Lakin Rusiya, ABŞ və Ermənistan kimi dövlətlər İranın vasitəçilik missiyasının uğur qazanmasına və onun regionda nüfuzunun artmasına razı ola bilmirdilər və öz hərəkətləri ilə onun qarşısını ala bildilər.

**Açarsözlər:** Cənubi Qafqaz region, Dağlıq Qarabağ münaqişəsi, vasitəçilik missiyası, siyasi maraqlar, xarici siyasət, İran İslam Respublikası, Azərbaycan Respublikası.

**Ключевые слова:** Южно-Кафказский регион, Нагорно-Карабахский конфликт, посредническая миссия, политические интересы, внешняя политика, Иранская Исламская Республика, Азербайджанская Республика.

**Key words:** Southern Caucases region, upland Karabakhcounflict, mediation mission, political interest, foregn policy, Iran Islamic Repoblic, Azerbaijan Repoblic.

İran İslam Respublikasının Cənubi Qafqaza xüsusilə də Azərbaycana geosiyasi maraqları həmişə böyük olmuşdur. Müasir dövrdə də İranın burada güclü maraqları1vardır və bu maraqlar da bir başa Azərbaycan Respublikasına qarşı yönəlmişdir(1. s.65). İranın